BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# İran müharibəsinin Ərəb dövlətlərinə sosial-iqtisadi təsirləri


## Lalə Xəlilzadə

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


APREL 2026

# İran müharibəsinin Ərəb dövlətlərinə sosial-iqtisadi təsirləri

- **İrana qarşı müharibənin bir ayı ərəb ölkələrinə 194 milyard dollara qədər zərər vurdu;**
- **Müharibə regionda 3,7 milyona qədər iş yerinin itirilməsi və 4 milyon insanın yoxsulluq həddinə düşməsi təhlükəsini yaratdı;**
- **Hörmüz boğazı böhranı nəticəsində qlobal neft axınının 20 faizinin keçdiyi bu strateji "boğulma nöqtəsi"ndə gəmiçiliyin həcmi 70 faizə qədər azaldı, bu isə yalnız enerji bazarında deyil, həm də qlobal gübrə və digər əmtəə bazarlarında zəncirvari təsirlərə səbəb oldu;**
- **Boğazdan keçən neftin 93,6 faizi beş Körfəz ölkəsində cəmləşdiyi üçün hərbi eskalasiya ən kəskin zərbəni bu ölkələrin ÜDM-nə vurdu, sosial fəsadlar (yoxsulluq) isə daha çox Levant və zəif iqtisadiyyatlı Sudan, Yəmən kimi ölkələrdə hiss olundu;**
- **Hörmüz boğazından keçən neftin yarısından çoxunu (təxminən 75%-ni) Çin, Hindistan, Yaponiya və Cənubi Koreya kimi Asiya nəhəngləri idxal etdikləri üçün bu logistik pozuntu qlobal sənaye istehsalının mərkəzini "enerji qıtlığı" riski ilə üz-üzə qoydu.**

2026-cı ilin fevral ayının sonunda başlayan İranla İsrail-ABŞ cütlüyünün müharibəsi Yaxın Şərq regionunun iqtisadi və sosial sistemlərində çoxşaxəli təsirlər göstərdi. Xüsusilə Körfəz ölkələrinin enerji ixracından və xarici ticarətdən yüksək asılılığı bu dövlətləri xarici şoklara qarşı daha zəif etmişdir. Müharibə nəticəsində ticarət marşrutlarında, enerji bazarlarında və maliyyə axınlarında ciddi pozuntular müşahidə olunmuş, regionun mövcud struktur zəiflikləri daha aydın şəkildə üzə çıxmışdır.

Eyni zamanda, qlobal neft istehsalının yüksək dərəcədə konsentrasiyası bu təsirləri daha da gücləndirmişdir. Belə ki, 2025-ci ildə dünya neftinin yarısı **cəmi beş ölkə** tərəfindən istehsal olunmuş, **ABŞ, Rusiya** və **Səudiyyə Ərəbistanı** isə birlikdə qlobal tədarükün təxminən **40%**-ni təmin etmişdir. ABŞ ayrılıqda ən böyük istehsalçı olsa da, regional baxımdan Yaxın Şərq lider mövqeyini qorumuşdur.

Region ölkələri 2025-ci ildə dünya xam neftinin təxminən 32%-ni istehsal edərək qlobal bazarda ən böyük paya sahib olmuşlar. **Səudiyyə Ərəbistanı, İraq, İran, Birləşmiş Ərəb Əmirlikləri** və **Küveyt** dünyanın **ən böyük 10 istehsalçı**sı sırasında yer

alır. Bu da Yaxın Şərqin qlobal enerji balansında hansı dərəcədə həlledici rol oynadığını göstərir.[1]

Belə bir struktur qlobal enerji bazarının məhdud sayda istehsalçıdan asılı olduğunu göstərir və regionda baş verən hərbi gərginliklərin beynəlxalq bazarlara sürətlə ötürülməsinə şərait yaradır. İlkin qiymətləndirmələrə əsasən, müharibənin ilk ayı ərzində region iqtisadiyyatına **120 milyarddan 194 milyard ABŞ dollarına qədər** zərər dəymişdir. Eyni zamanda, **3,7 milyon**a qədər iş yerinin itirilməsi və təxminən **4 milyon** insanın yoxsulluq həddinə düşməsi riski formalaşmışdır.[2]

Bu baxımdan, münaqişənin region ölkələrinin makroiqtisadi göstəricilərinə və ümumi iqtisadi dinamikasına təsirlərinin sistemli şəkildə təhlili vacibdir.

### *Makroiqtisadi təsirlər*

Münaqişənin makroiqtisadi təsirləri region daxilində qeyri-bərabər paylanmışdır. Ən ciddi itkilər Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ölkələri və Levant subregionunda müşahidə olunmuş, Şimali Afrika ölkələri isə nisbətən daha məhdud təsirlərlə üzləşmişdir.

Bəzi hidrokarbon ixrac edən ölkələr (Misir, Liviya və Əlcəzair) qlobal enerji qiymətlərinin artmasından müəyyən dərəcədə faydalanaraq itkilərin bir hissəsini kompensasiya edə bilmişlər. Bununla belə, Sudan və Yəmən kimi zəif iqtisadi struktura malik ölkələrdə təsirlərin real ağırlığı daha yüksəkdir.

Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının mart ayının 31-də yaydığı məlumatda bir aylıq müharibədən sonra regionda ümumi daxili məhsulun (ÜDM) təxminən **3,7-6 faiz**ə qədər azalacağı təxmin edilir. Eyni zamanda, artan qeyri-müəyyənlik investisiya axınlarının azalmasına və kapital yığımının zəifləməsinə səbəb olmuşdur. (Şəkil 1).




**Şəkil 1. Ərəb dövlətləri subregionlarında ÜDM itkilərinin faiz və dəyər ifadəsində təxmini paylanması (2026).**

[1] الأمم المتحدة: الحرب تمحو أكثر من عام من نمو المنطقة العربية | اقتصاد | الجزيرة نت - (BMT: Müharibə ərəb regionunda bir ildən artıq əldə edilən iqtisadi artımı silir) 31 mart, 2026, https://www.aljazeera.net/ebusiness/2026/3/31/undp-war-arab-region?

[2] Escalation in the Middle East reverses more than a year of economic growth in the Arab States region, according to new UN Development Programme assessment | United Nations Development Programme, March 31, 2026, https://www.undp.org/arab-states/press-releases/escalation-middle-east-reverses-more-year-economic-growth-arab-states-region-according-new-un-development-programme

## *Əmək bazarına təsirlər*

Münaqişə regionda əmək bazarına ciddi təsir göstərmiş, xüsusilə aşağı ixtisaslı işçi qüvvəsi daha çox zərər görmüşdür. Proqnozlara əsasən, ixtisassız işçilər arasında işsizlik səviyyəsinin **3–4,5 faiz**, ixtisaslı işçilər arasında isə **2,5–3,5 faiz** artacağı gözlənilir. Bu isə ümumilikdə **2,5–3,5 milyon** əlavə işsiz deməkdir. (Şəkil 2).

Ən kəskin təsirlər KƏŞ ölkələrində müşahidə olunur. **Dubay, Doha** və **Riyad** kimi regional xidmət və turizm mərkəzlərində iqtisadi aktivliyin azalması xüsusilə diqqət çəkir. Bu sektorlar təhlükəsizlik və sabitliklə bağlı risklərə qarşı həssas olduğundan münaqişə onların fəaliyyətinə birbaşa təsir göstərmişdir.

Regionda geniş yayılmış miqrant işçi qüvvəsi də risk altındadır. Əmək bazarındakı daralma və gəlir azalması Hindistan, Pakistan, Banqladeş və Misir kimi ölkələrə pul köçürmələrinin azalmasına səbəb olaraq əlavə yayılma effekti yaradır.

Levant bölgəsində əmək bazarına davamlı təzyiqlər regionun struktur zəiflikləri ilə bağlı olaraq müşahidə olunur. Şimali Afrikada işsizlik nisbətində dəyişikliklər nisbətən məhdud qalsa da, əhali sayının çoxluğu nəzərə alınmaqla hələ də əhəmiyyətli sayda insanı əhatə edir. Hökumətlər milli birlik mesajlarını gücləndirməyə çalışır və sürətli reaksiya mexanizmləri ilə ictimai etimadı qorumağa çalışır. Artan gərginlik cəmiyyətlərdə narahatlıq yaradır, buna görə də hökumətlər sosial həmrəyliyi və kollektiv dözümlülüyü ön plana çıxarır.




**Şəkil 2. Ərəb dövlətləri subregionlarında işsizlik səviyyəsinin artımının faizi və real təsir (2026)**

## *Yoxsulluqla bağlı təsirlər*

Münaqişənin sosial təsirləri əsasən yoxsulluq səviyyəsində özünü göstərir. Proqnozlara görə, regionda təxminən **4 milyon** əlavə insan yoxsulluq həddinə düşə bilər. Bu artım daha çox **Levant ölkələrində** və **Sudan, Yəmən** kimi zəif iqtisadi struktura malik dövlətlərdə müşahidə olunur. Bu ölkələrdə sosial müdafiə mexanizmlərinin zəifliyi və iqtisadi dayanıqlığın aşağı səviyyədə olması təsirlərin daha dərin hiss olunmasına səbəb olur.

**Şimali Afrika ölkələri**ndə təsirlər nisbətən məhdud olsa da, əhali sayının çoxluğu səbəbindən yoxsulluğun artımı ümumi göstəricilər baxımından əhəmiyyətli olaraq qalır (Şəkil 3).

**Sudan**dakı vəziyyət göstərir ki, münaqişə və beynəlxalq gərginliklər ərzaq və yanacaq qiymətlərinin kəskin artmasına səbəb olur. Çörəyin qiymətinin 50 funt yüksəlməsi və rəsmi olaraq dörd çörəyin 1000 funtadək bahalaşması orta gəlirli vətəndaşın gündəlik xərclərini əhəmiyyətli dərəcədə artırır. Yanacaq qiymətlərinin artması daxili daşımaların və ərzaq istehsalının xərclərini yüksəldir, nəticədə yoxsulluq və sosial gərginlik dərinləşir. Sudanın daxili buğda istehsalının müharibə ucbatından dayandırılması və idxalın artırılması isə, regionun ərzaq təhlükəsizliyini daha da qeyri-sabit edir. İşsizlik və gəlir mənbələrinin itirilməsi milyonlarla vətəndaşın rifahını aşağı salır. Bu vəziyyət regional və qlobal neft və ərzaq qiymətlərinin təsiri ilə daha da kəskinləşir. BMT-nin məlumatına görə, 5 milyondan çox Sudan vətəndaşı aclıq riski ilə üzləşir, əlavə 18 milyon isə, ciddi ərzaq çatışmazlığı yaşayır. Nəticədə münaqişənin sosial və iqtisadi təsirləri həm gündəlik həyatın, həm də uzunmüddətli sabitliyin üzərinə ciddi yük qoyur.[3]




**Şəkil 3. Ərəb dövlətləri subregionlarında yoxsulluq səviyyəsinin artımının faiz və insan sayı ifadəsində təxmini paylanması (2026)**

## *Enerji və dəniz logistikasında pozuntular: Hörmüz boğazının rolu*

Son dövrlərdə artan gərginlik dənizçilik fəaliyyətinin qısa müddətdə ciddi şəkildə təsirlənə biləcəyini göstərmişdir. Əsas qlobal gəmiçilik şirkətləri riskin yüksək olduğu ərazilərdən keçməmək üçün gəmilərin hərəkətini dayandırmış və ya marşrutlarını dəyişdirmişlər. Nəticədə tankerlərin hərəkətində kəskin azalma baş vermiş, sığorta haqları əhəmiyyətli dərəcədə yüksəlmiş və hər səfərin məsrəfləri artmışdır. Hörmüz boğazında dəniz təhlükəsizliyi risklərinin yüksəlməsi və tankerlərə edilən hücumlar marşrut üzrə ümumi gəmiçilik həcminin təxminən **70 faiz**ə qədər azalmasına səbəb

[3] تداعيات حرب إيران... ارتفاع كبير في أسعار الخبز والوقود بالسودان – (İran müharibəsinin nəticələri. Sudanda çörək və yanacaq qiymətlərində kəskin artım), 5 aprel, 2026, تداعيات حرب إيران... ارتفاع كبير في أسعار الخبز والوقود بالسودان

olmuş, bu da Körfəz ölkələrinin enerji və gübrə ixracını ciddi şəkildə məhdudlaşdırmışdır.

Bu fasilələr təkcə regional deyil, qlobal ticarət və maliyyə bazarlarında da qeyri-müəyyənliyi artırmışdır. Gərginlik nəticəsində Brent markalı neftin qiyməti **72 dollar/barel** səviyyəsindən **120 dollar**a qədər yüksəlmiş, martın 23-dək **110 dollar** civarında qərarlaşmış, aprel ayının əvvəlində isə **108–112 dollar** diapazonunda dəyişmişdir. Bu dinamika enerji təchizatında fasilələr və artan risk primlərinin bazara təsirini əks etdirir. Enerji idxalından asılı ölkələrdə isə bu artım sürətlə daxili qiymətlərə ötürülmüşdür. Məsələn, Misirdə benzin, dizel və sıxılmış təbii qaz qiymətlərini 14–30 faiz artırmışdır.

Hörmüz boğazı qlobal enerji logistikasının ən kritik "boğulma nöqtəsi" (choke point) hesab olunur. Dünya üzrə neft istehlakının təxminən **20 faizi**, eləcə də külli miqdarda maye qaz (LNG) bu marşrut vasitəsilə daşınır. Boğazın coğrafi quruluşu — gəmi yollarının eninin **24 mildən 60 milə** qədər dəyişməsi — onu hərbi müdaxilələr və texniki qəzalar qarşısında son dərəcə həssas edir.

Hörmüz boğazından keçən neft axınları əsasən bir neçə Körfəz istehsalçısı arasında cəmləşib. Boğazdan keçən xam neft və kondensat ixracının **ən böyük hissəsi Səudiyyə Ərəbistanının payına düşür və ümumi ixracın 37,2 faizini təşkil edir.** Digər əsas ixracatçıların pay bölgüsü:

| | **İstehsalçı ölkə** | **Faiz nisbəti** |
|---|---|---|
| 1 | Səudiyyə Ərəbistanı | 37,7% |
| 2 | İraq | 14,7% |
| 3 | BƏƏ | 12,0% |
| 4 | İran | 10,9% |
| 5 | Küveyt | 10,1% |

Qeyd edək ki, bu 5 ölkə boğazdan keçən ümumi xam neft və kondensat ixracının **93,6 faiz**ini təmin edir. Bu səbəbdən Hörmüz boğazında yaranan kiçik hərbi gərginlik və ya təsadüfi insident belə, qlobal enerji bazarlarını sürətlə qeyri-sabitləşdirə və qiymətlərin kəskin hərəkətinə səbəb ola bilər. Əsas idxalçı ölkələr isə əsasən Asiya dövlətləridir: **Çin, Hindistan, Yaponiya** və **Cənubi Koreya** boğazdan keçən xam neftin yarısından çoxunu alır. Boğazın bağlanması və logistikanın pozulması bu iqtisadiyyatlara qeyri-mütənasib təsir göstərə bilər. ABŞ isə Hörmüz boğazından yalnız **2,5 faiz** pay alır. Son hərbi gərginlik və İranın gəmilərə hücum etmə ehtimalı qlobal neft axınlarının 20 faizdən çoxunu risk altına qoymuşdur. (Şəkil 4)

| | İstehlakçı ölkə | Faiz nisbəti |
|---|---|---|
| 1 | Çin | 37,7% |
| 2 | Hindistan | 14,7% |
| 3 | Cənubi Koreya | 12,0% |
| 4 | Yaponiya | 10,9% |




**Şəkil 4. Hörmüz boğazı vasitəsilə neft axını: İstehsalçı və istehlakçı ölkələrin payları (2025)**

## *Nəticə*

2026-cı ilin hərbi eskalasiyası göstərdi ki, qlobal neft bazarı hələ də Yaxın Şərqdəki geosiyasi sabitlikdən kritik dərəcədə asılıdır. Hasilatın bir neçə ölkədə cəmləşməsi bu regiondakı istənilən insidentin qlobal inflyasiya və enerji qıtlığına yol açmasına səbəb olur. Müharibənin vurduğu 194 milyard dollarlıq zərər və milyonlarla insanın yoxsulluğa sürüklənməsi regionun "qarşılıqlı əlaqəli iqtisadiyyatları" üçün ağır bir dərsdir.

Gələcək inkişaf trayektoriyası təkcə hərbi əməliyyatların dayandırılmasından deyil, həm də infrastrukturun bərpası üçün tələb olunan nəhəng investisiyaların cəlb edilməsindən və Hörmüz boğazı kimi strateji dəhlizlərin təhlükəsizliyinin beynəlxalq zəmanət altına alınmasından asılı olacaqdır.

**Bununla yanaşı, regionun iqtisadi sabitliyini təmin etmək üçün xarici ticarət şəbəkələrinin diversifikasiyası və enerji ixracatında alternativ marşrutların yaradılması zəruridir. Hökumətlərin sosial dəstək mexanizmlərini gücləndirməsi və yoxsulluğun azaldılması istiqamətində atılacaq addımlar insan kapitalının qorunması baxımından həyati əhəmiyyət kəsb edir.**

**Beynəlxalq ictimaiyyətin regiona həm iqtisadi, həm də siyasi dəstək verməsi, eyni zamanda sülh proseslərinin fəallaşdırılması isə, davamlı inkişafın təməl daşıdır. Nəticə olaraq, Yaxın Şərqdə uzunmüddətli sabitliyin təmin edilməsi qlobal enerji təhlükəsizliyi və iqtisadi inkişaf üçün vacib amildir.**

**Müəllif: Lalə Xəlilzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) aparıcı məsləhətçisi**